“Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək”

Azərbaycanın ikitərəfli münasibətlərinin dinamik inkişaf etdiyi ölkələr sırasında İtaliya xüsusi yer tutur. Xatırladaq ki, bu münasibətlərin əsası İtaliyanın Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci il yanvarın 1-də tanıması, 1992-ci il mayın 8-də isə iki ölkə arasında diplomatik əlaqələr yaradılması ilə başlanılıb. Onu da deyək ki, 1997-ci ilin mart ayında İtaliya hökuməti Cənubi Qafqaz ölkələri arasında ilk dəfə Azərbaycanda öz səfirliyini təsis edib, 2003-cü ilin dekabr ayında isə Azərbaycan Respublikasının İtaliyada səfirliyi fəaliyyətə başlayıb.

Yeri gəlmişkən, 1997-ci il sentyabrın 25-28-də ulu öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafına xüsusi təkan verib.

Sonrakı dövrdə İtaliyanın rəsmi şəxsləri Azərbaycana, ölkəmizin rəsmi şəxsləri isə İtaliyaya çoxsaylı səfərlər ediblər. Bu səfərlər çərçivəsində iki ölkə arasında ikitərəfli əlaqələrin tənzimlənməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə dair sənədlər imzalanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın İtaliyaya dəfələrlə reallaşam səfərləri də iki ölkə arasında əməkdaşlığı daha da möhkəmlədib. Xüsusilə, iki ölkənin enerji sahəsində əməkdaşlığında mühüm uğurlar əldə edilib. Belə ki, 1995-cu il noyabrın 10-da ARDNŞ və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı “Qarabağ” perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1996-cı ilin iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Şah Dəniz” perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1998-ci ilin iyunun 2-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı “Kürdaşı” dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanıb.

Qeyd edək ki, 2002-ci ilin sentyabr ayında İtaliyanın ENİ/Agip şirkəti Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinə dair sazişi imzalayaraq 5 faiz payla layihə üzrə sponsorlar qrupunun üzvünə çevrilib.

Ermənistan – Azərbaycan müharibəsi zamanı da İtaliya Azərbaycanın yanında olub, bu ölkənin parlament qrupu Azərbaycana səfər edib. Senatorlar Gəncə şəhərinin Ermənistan tərəfindən raketlərlə atəşə tutulmasının nəticələri ilə, Ağdam rayonunda işğalın fəsadları ilə yerində tanış olub, öz fikirlərini bölüşüblər.

Burada bir məqamı da vurğulamaq istərdik. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən, dost ölkələr işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma işlərinə cəlb olunacaqlar. Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında çıxış edən dövlət başçımız bir daha bu fikiri təkrarlayaraq qeyd edib ki, birinci müqavilə Türkiyə şirkəti ilə imzalanıb, ikinci müqavilənin isə İtaliya şirkəti ilə imzalanması nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 3-də İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən, yuxarıda qeyd edilənlər barədə ətraflı danışılıb. Çıxışlarda Azərbaycan – İtaliya əlaqələrinin möhkəm dostluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığı diqqətə çatdırılıb.

Prezident İlham Əliyev nitqində bu gün Azərbaycanın tarixinin yeni səhifəsinin başlandığını bildirərək, ölkəmizin düşməndən təmizləndiyi ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirlərin görüləcəyinə əminliyini ifadə edib: “Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq. Əlbəttə, sizin Azərbaycandakı fəaliyyətiniz və həyata keçirdiyiniz layihələr bizə sənayemizin qeyri-enerji sektorunu artırmağa kömək edir”.

Dövlətimizin başçısı çıxışında ötən il pandemiyaya şəraitində, habelə Azərbaycanda olan iqtisadi azalmaya baxmayaraq, qeyri-enerji sənayesinin 12,5 faiz artdığını, bunun isə sənayeləşmə proqramının əsl nümayişi olduğunu vurğulayıb, burada “Maire Tecnimont Group” kimi aparıcı beynəlxalq şirkətlə əməkdaşlığın da mühüm önəm daşıdığını xatırladıb.

> ***İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin, keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Prezident İlham Əliyev nitqində adı çəkilən şirkətin Azərbaycandakı uğurlu fəaliyyətindən də bəhs edib. Bildirib ki, “Maire Tecnimont Group” respublikamızda dəyəri 1,6 milyard avrodan çox olan layihələrə cəlb olunub, şirkətin ölkəmizdə fəaliyyətinin bundan sonra da bu davam etdirilməsi nəzərdə tutulub: “Çünki siz artıq bizim ölkəyə sadiq olduğunuzu nümayiş etdirmisiniz. Sizin fəaliyyətinizdə yer alan yerli vətəndaşların sayı ilə bağlı dediklərinizə sizin sadiqliyinizi və Azərbaycanda uzunmüddətli strategiyanızı nümayiş etdirir. Çünki burada uzun müddət ərzində fəaliyyət göstərməyi planlaşdırmasaydınız bunu etməzdiniz. Başlanğıcda yalnız italyanlar işləyirdi, indi yerli kadrların sayı 70 faizdən çoxdur. Beləliklə, siz təlimlərə töhfə vermisiniz və bu da çox önəmlidir”.

İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı iki ölkə arasında əməkdaşlığın bu gün uğurla davam etdiyini, bir il bundan əvvəl İtaliyaya dövlət səfəri çərçivəsində bunun bir daha şahidi olduğunu xatırladıb. Bunun əsas səbəblərindən biri kimi, Azərbaycanın hər zaman verdiyi vədə sadiq qalması, razılaşdırılan məsələlərin icrasının diqqətdə saxlaması olduğunu bildirib. Həmçinin, keçən il ölkəmizin tarixində yaşanan çətin vaxtlarda italyan xalqının Azərbaycanla həmrəy olduğunu qeyd edib: “Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir”.

Dövlətimizin başçısı çıxışında italyan şirkətlərinin ərazilərimizin bərpası ilə bağlı layihələrdə də çox fəal olacaqlarına əminliyini ifadə edib. Bildirib ki, artıq bir neçə italyan şirkəti bərpa və tikinti işlərinin aparılmasına dəvət olunub. Onların sayının daha da artacağı gözlənilir. Çünki yalnız dost ölkələrdən olan şirkətlərin bu quruculuq tədbirlərinə dəvət edilməsi nəzərdə tutulub: “Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın həqiqətən kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir”.

Azərbaycan Prezidenti çıxışında Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlı layihəyə də toxunaraq, bununla bağlı artıq yer ayrıldığını, təhsil müəssisəsinin yaradılması ilə bağlı işlərə başlanıldığını, həmçinin bu məsələnin hökumət səviyyəsində razılaşdırıldığını vurğulayıb: “Bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda, biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə bilək deyə bizim iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu, həmçinin, ölkələrimiz arasında sıx dostluq əlaqələrinin güclənməsinə də kömək edəcək”.

Prezident İlham Əliyev nitqində yuxarıda qeyd edilənlərlə bərabər, “Maire Tecnimont Group”un gələcək tərəfdaşlıqla bağlı ideyalarını tam dəstəklədiyini, Turin Universitetinin ümumi işlərimizdə iştirakının alqışlanmalı olduğunu, texnoloji inkişaf baxımından yenilik sayılan “yaşıl kimya”nın azad olunmuş ərazilərdə də tətbiqinə üstünlük veriləcəyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı nitqinin sonunda deyib: “Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik. Çünki ölkə müasirləşməlidir, intellektual baxımdan bacarıqlı olmalıdır və sənaye sahəsində güclənməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim bu cür güclü tərəfdaşa ehtiyacımız var”.

Yeri gəlmişkən, İtaliyanın “Maire Tecnimont Group” şirkəti ilə bərabər, digər özəl qurumları da Qarabağda aparılacaq bərpa proseslərində iştirak edəcəklər. Bir müddət bundan əvvəl dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işgaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə “Azərenerji” ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın “Ansaldo Energia” şirkətinin rəhbəri Marino Guiseppenin, həmçinin İtaliyanın ölkəmizdəki səfiri Augusto Massarinin iştirakı ilə video-konfrans formatında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsinin imzalanması da bunun bariz ifadəsidir. Bununla da Qarabağda həyata keçiriləcək layihələrə Türkiyədən sonra başqa bir nüfuzlu dövlət – İtaliya şirkətləri də qoşulacaq.

Xatırladaq ki, “Azərenerji” ilə “Ansaldo Energia” rəhbərlərinin İtaliyanın Azərbaycandakı səfirinin iştirakı ilə imzalanan müqaviləyə görə, Agdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq dörd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz “Ansaldo Energia” şirkəti həyata keçirəcək.

Ermənistanın 30 il ərzində işgal altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında butun infrastruktur, o cümlədən elektrik stansiyaları, yarımstansiyaları, ötürücü xətləri dağıdılaraq yerlə yeksan edilib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət belə qalmayıb. Laçın, Kəlbəcər, Şuşa və digər işğaldan azad edilmiş ərazilərdə isə erməni qəsbkarları bütün enerji infrastrukturunu sıradan çıxarıblar, apara bildikləri avadanlıqları daşıyıblar, apara bilmədiklərini isə ya partladıb, ya da yandırıblar.

Sonda qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən son 17 ildə ardıcıl həyata keçirilən demokratik proseslər və sosial-iqtisadi islahatlarla yanaşı, uğurlu xarici siyasət dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini respublikamıza yönəldib. Şübhəsiz ki, bütün bunlar beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın daha da güclənməsinə, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayının artmasına, Azərbaycanla Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanmasına öz müsbət təsirini göstərib.

Hazırda Azərbaycan regionun yeganə ölkəsidir ki, mürəkkəb geosiyasi şəraitdə müstəqil uğurlu xarici siyasət yürüdərək, milli maraqlara söykənən prinsiplərlə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Bunun nəticəsidir ki, dövlətimizin gerçəkləşdirdiyi enerji layihələri, regional inteqrasiyanı sürətləndirən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Sadalananlar isə Azərbaycanın dünya miqyasında nüfuzunu artırmaqla yanaşı, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi məhz, Azərbaycanda formalaşıb. Respublikamız iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə, dünya ölkələri arasında öncül yerlərdən birini tutub. Beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycanın potensial maliyyə və iqtisadi imkanları yüksək qiymətləndirilib.

Bütün bu uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsizliyini və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

Vaqif BAYRAMOV,
“Xalq qəzeti”